BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2014*

# İQTİSADİYYAT

**UOT 339.9; 339.9:061(100)**

## QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ ONUN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMLƏRİ

**H.H.ASLANOV, V.İ.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***dosent1966@mail.ru***

*Qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən tənzimlənməsi milli iqtisadiyyatın alternativ ixrac bölməsinin formalaşdırılmasına əhəmiyyətli təsir göstərir, o cümlədən, ölkənin neftdən asılılıq səviyyəsinin azaldılması sahəsində mühüm əhəmiyyəti ilə seçilir. Qeyri-neft bölməsinin dövlət tərəfindən tənzimlənməsi bu sahənin iqtisadi dayanıqlığının möhkəmlənməsinə əlverişli zəmin yaradır. Bu sahənin dövlət tənzimlənməsi son nəticədə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, regionların inkişafına bilavasitə rəvac verir. Məqalədə bu və digər məsələlər ətraflı öyrənilmişdir.*

**Açar sözlər:** dövlət tənzimlənməsi, neft sektoru, ixrac potensialı, xarici ticarət, iqtisadi təhlükəsizlik, regional inkişaf

XXI əsrin əvvəllərindən etibarən beynəlxalq iqtisadi münasibətlər sistemini tam mənası ilə əhatə dairəsinə alan qloballaşma prosesləri qlobal iqtisadi böhranların yaranması ilə müşahidə edilməkdədir. Qlobal iqtisadi böhranların mövcudluğu, nəticə etibarilə hər bir ölkənin milli iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan, qlobal iqtisadi böhranların destruktiv təzahürlərini intensiv şəkildə neytrallaşdırmaq məqsədilə, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilməsi obyektiv zərurətə çevrilir.

Qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən tənzimlənməsinə istiqamətləndirilmiş tədbirlərin həyata keçirilməsi milli iqtisadiyyatın alternativ ixrac sektorunun formalaşdırılmasına əhəmiyyətli təsir göstərir. O cümlədən ölkənin neftdən asılılıq səviyyəsinin azaldılması sahəsində mühüm tədbirlər planı ilə özünü biruzə verir. Qeyri-neft sektorunun dövlət tərəfindən tənzimlənməsinə istiqamətlənmiş tədbirlər bu sahənin iqtisadi dayanıqlığının möhkəmləndirilməsinə əlverişli zəmin yaradır. Müasir şəraitdə qeyri-neft sektorunun

inkişafının dövlət tənzimlənməsinə istiqamətlənmiş tədbirlər həmin məhsulların rəqabətə davamlılığının yüksəldilməsində mühüm rol oynayır. Qeyri-neft sektorunda istehsal edilən məhsulların istər daxili bazarda, istərsə də xarici bazarda möhkəmləndirilməsi intensiv texnologiyaların tətbiqinin həyata keçirilməsini özündə əks etdirir [1,5, 219].

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, qeyri-neft sektorunun inkişaf etdirilməsində kifayət qədər problemli situasiyalar mövcuddur. Bu problemli situasiyaların mövcudluğu həmin sahələrdə kapital catışmazlıgının mövcudluğu ilə səciyyələnir. Bundan əlavə, həmin sahələrdə infrastruktur təminatının müasir tələblər səviyyəsində olmaması son nəticədə həmin məhsulların dünya bazarına daxil olmasında problemlərin yaranmasına gətirib çıxarır və eləcə də həmin məhsulların rəqabətə davamlılığının aşağı olmasına səbəb olur. Bütün bunları nəzərə alaraq müasir şəraitdə qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən tənzimlənməsinə ehtiyac vardır [2, 110].

**Tədqiqatın nəticələri**. Qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini şərtləndirən amillər onunla bağlıdır ki, bütün bunlar, son nəticədə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə bilavasitə rəvac verir. Beləliklə, qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi makroiqtisadi, daha çox strateji əhəmiyyətli zərurətdən doğur. Bu da ölkənin iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə sıx əlaqədardır. İqtisadi təhlükəsizliyin təmin edilməsi iqtisadi dayanıqlığın möhkəmləndirilməsini və iqtisadiyyatda xarici rəqabətin əlverişsiz təzahürlərinin effektiv şəkildə neytrallaşdırılmasını özündə əks etdirir.

Qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən tənzimlənməsini səciyyələndirən mühüm amillərdən biri də regional xüsusiyyətlərlə bağlıdır. Nəzərə almaq lazımdır ki, respublikamızın regionları əsas etibarı ilə qeyri-neft məhsulları istehsalı üzrə ixtisaslaşmışdır. Belə ki, mərkəzləşdirilmiş iqtisadi münasibətlər sistemində, daha doğrusu Sovetlər Birliyinə daxil olduğu dövrdə respublikamızın regionları əsas etibarı ilə kənd təsərrüfatı, emal sənayesinin mərkəzləşdirilmiş iqtisadi münasibətlər sisteminin iflası nəticəsində, demək olar ki, kənd təsərrüfatı və emal sənayesi sahəsində kəskin şəkildə durğunluq halları özünü biruzə vermişdir. Hal-hazırda da qeyri-neft sektoru, o cümlədən, kənd təsərrüfatı və emal sənayesində həllini gözləyən problemlər də kifayət qədər çoxdur. Ötən əsrin 70-80-ci illərində yaradılmış üzüm emalı müəssisələri, şərabçılıq müəssisələri, demək olar ki, avadanlıqların dağılması və xaricə daşınması halları ilə müşahidə edilmiş və bütün bunlar, bütövlükdə qeyri-neft sektorunun inkişafında kəskin böhran hallarının yaranmasına gətirib çıxarmışdır. 20-ci əsrin sonu, 21-ci əsrin əvvəllərindən etibarən respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməyə başlamışdır. Belə ki, ölkə prezidentinin 11 fevral 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının regionların sosial–iqtisadi inkişafı Dövlət Proqramları (2004 – 2008-ci illər) regionlarda işsizliyin

səviyyəsinin aşağı salınmasında, eləcə də alternativ məşğulluq imkanlarının təmin edilməsi baxımından mühüm rola malik olmuşdur. Bundan əlavə, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından ikinci Dövlət Proqramı da bütövlükdə istər Bakı şəhərinin kəndlərində və istərsə də regionlarda həllini gözləyən problemlərin çevik şəkildə reallaşdırılmasına əlverişli şərait yaratmışdır və 2013-cü ildə yekunlaşmışdır.

Qeyri-neft sektorunun inkişafına bir sıra hallarda iqtisadi sistemin tipi və strukturu da əhəmiyyətli dərəcədə təsir göstərir. Bazar münasibətlərinin inkişafı bir sıra hallarda kifayət qədər biznes cəlb ediciliyinə malik olmayan qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsinə stimul yaratmır. Məhz bütün bunların nəticəsində istər xarici investorlar, istərsə də yerli kredit qurumları və həm də yerli investorlar qeyri-neft sektorunun biznes cəlb ediciliyinə malik olmayan sahələrinə investisiya qoymağa maraqlı olmurlar. Dünya təcrübəsi göstərir ki, müasir şəraitdə qeyri-neft sektorunun inkişafının dəstəklənməsinə xüsusi ehtiyac var. Bu dəstəklənmə dövlət tərəfindən məqsədli maliyyələşmə proqramlarının həyata keçirilməsini və eləcə də elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin davamlı olaraq istehsala tətbiqini özündə birləşdirir.

Qeyri-neft sektorunun inkişafının dövlət tərəfindən tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin obyektiv zəruriliyi həm də regionların sosial-iqtisadi inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Beləliklə, regional inkişafın təmin edilməsi respublikamızda dövlətin iqtisadi və sənaye siyasətinin reallaşdırılması, məhz regionlarda qeyri-neft sektorunun inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlərin reallaşdırılması ilə nəticələnməlidir.

Qeyri-neft sektorunun inkişaf etdirilməsinin dövlət tərəfindən tənzimlənməsini zərurətə çevirən mühüm amillərdən biri də müəssisələrin gəlirlərinin artırılması ilə sıx bağlıdır. Qeyri-neft sektorunun inkişaf etdirilməsinə dövlət qayğısının artırılması sahibkarlıq qurumlarının gəlirlərinin artırılmasına səbəb ola bilər. Bu isə həmin sahədə fəaliyyət göstərən sahibkarlıq qurumlarının istər daxili bazarda və istərsə də xarici bazarlarda öz mövqelərinin möhkəmləndirilməsinə gətirib çıxarmaqla yeni iş yerlərinin yaradılmasına əlverişli şərait yaradır.

Qeyri-neft sektorunun dövlət tərəfindən tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin müvəffəqiyyətini şərtləndirən amillərdən biri də sahələrdə rəqabət imkanlarının kifayət qədər genişləndirilməsidir. Daha doğrusu, həmin sahəyə dövlət yardımları o halda uğurla nəticələnə bilər ki, adı çəkilən sahənin məhsulları idxal məhsulları ilə kifayət qədər səmərəli şəkildə rəqabət aparmaq imkanına malik olsun. Bütün bunlar iqtisadi fəaliyyətdə müsbət balansın yaranmasına əlverişli şərait yarada bilər. Bundan əlavə xarici ticarət balansında müsbət saldonun yaranması ilə yanaşı eyni zamanda ixracın strukturunda müsbət dəyişikliklərin əldə edilməsi də başlıca şərtlərdən biridir [3,5, 212].

Qeyri-neft sektorunun inkişafının dövlət tənzimlənməsinin əsas məqsədi adı çəkilən sahədə istehsal edilən məhsulun rəqabətdavamlılığının yüksəldilməsinə əlverişli şərait yaratmaqdan ibarətdir. Qeyri-neft sektorunun istehsal

edilən məhsulun rəqabətdavamlılığının yüksəldilməsinə bir sıra amillər təsir göstərir ki, bunlara  ağaşıdakıları aid etmək olar:

1. İlk növbədə məhsulun keyfiyyətinin alıcıları üçün yetərli və əlverişli xarakter daşımalı;
2. Həmin sahələrdə qiymətlərin səviyyəsi tələbin səviyyəsini stimullaşdırmalı;
3. Məhsul istehsalının həcmi və çeşidi istehlakçıların ehtiyaclarına uyğun olmalıdır.

Müasir şəraitdə qeyri-neft sektorunun inkişaf etdirilməsi hesabına yüksək keyfiyyətli istehlak məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi idxalın səmərəli şəkildə əvəzlənməsində əhəmiyyətli rola malikdir. Bazar iqtisadiyyatının tələbləri və qanunauyğunluqları göstərir ki, bu və ya digər məhsul, istər daxili, istərsə də xarici bazarda o zaman müvəffəqiyyətlə reallaşdırıla bilər ki, onların keyfiyyəti yüksək olsun və satış qiymətləri istehlakçıları üçün yetərli səviyyəyə malik olsun. Məhz belə bir şəraitdə həmin məhsulların reallaşdırılması təmin edilə bilər.

Məhsulun reallaşdırılması müasir bazar iqtisadiyyatının ən mühüm problemlərindən biridir. Odur ki, məhsul istehsalının rəqabətdavamlılığının yüksəldilməsi məhsulun surətlə reallaşdırılmasının təmin edilməsinin başlıca, ilkin şərtlərindən biridir. Bu baxımdan dövlət tərəfindən həyata keçirilən tənzimləmə tədbirləri infrastruktur sisteminin müasir tələblərə cavab verməsinə xidmət etməlidir. Bu, özünü xüsusilə kənd təsərrüfatında tam mənası ilə obyektiv zərurətə çevirir. Kənd təsərrüfatında bazar infrastrukturlarının formalaşdırılması hesabına məhsulun saxlanma imkanlarını yaxşılaşdırmaq mümkündür ki, bu da əmtəə istehsalçılarının mövsümi situasiyalardan sonrakı dövrdə daha çox gəlir əldə etmək imkanına malik olması deməkdir.

Qeyri-neft sektorunun dövlət tənzimlənməsi qeyri-neft sektorunda istehsal edilən məhsulların xarici bazara çıxış imkanlarını təmin etməkdən ibarətdir. Bu baxımdan qeyri-neft sektorunda biznes – planların işlənib hazırlanması mühüm əhəmiyyətə malikdir. Biznes – planların işlənib hazırlanması mühüm əhəmiyyətə malikdir. Biznes – planları bir qayda olaraq yeni məhsulların bazarlarının təhlil edilməsinə, onların rəqabət qabiliyyətinin müəyyənləşdirilməsinə, eləcə də qiymətlərin səviyyəsinin qısa və uzunmüddətli zaman kəsiyində dəyişməsi ilə bağlı təhlillərin aparılmasına əsaslanır. Ümumiyyətlə, biznes – planlar mahiyyət etibarı ilə əsas əmtəə bazarlarında satış prosesinin həcmini proqnozlaşdırmağa imkan verir.

Məlum həqiqətdir ki, qeyri-neft sektorunun dövlət tənzimlənməsinə yönəldilmiş tədbirlər kütləvi – informasiya sahəsində qeyri-neft sektorunun məhsullarının reklamını da özündə əks etdirir. Daha doğrusu, reklam kanalları, əsas etibarı ilə məhsulların istehlakçılara çatdırılması ilə bağlı əhəmiyyətli rola malikdir. Bu baxımdan informasiya təminatı özünü, əsas etibarı ilə 3 aspektdə biruzə verir. Bunlardan birincisi, satış bazarlarında məhsulların reallaşdırılması ilə bağlı informasiyaların əldə edilməsidir. Bu, buraxılan məhsulların əmtəə qrupları üzrə təsnifləşdirilməsini özündə əks etdirir. İkinci aspekt, əsas etibarı

ilə biznes sektorunda fəaliyyət göstərən firmaların imkanlarını özündə əks etdirir və həmin imkanlar müqabilində rəqabətədavamlı məhsul istehsalının həyata keçirilməsini və həmin məhsulların bazara çıxarılmasını nəzərdə tutur. Bu zaman daxili və xarici bazarların öyrənilməsi əsas amillərdən biridir. Üçüncü aspekt isə, bir qayda olaraq yerli əmtəə istehsalçılarının səmərəli təsərrüfat fəaliyyətinin həyata keçirilməsi ilə sıx əlaqədardır.

Müasir şəraitdə qeyri-neft sektorunun dövlət tənzimlənməsi, əsas etibarı ilə 4 qrupdan ibarət olan tədbirləri özündə əks etdirir. Bu tədbirlərə daxildir:

1. Dövlət əmlakının idarə edilməsi.
2. Maliyyə - iqtisadi siyasəti.
3. İnvestisiya siyasəti.
4. İnnovasiya siyasəti.

Qeyri-neft sektorunun dövlət tənzimlənməsinin funksiyaları içərisində ən çox ağırlıq mərkəzini iqtisadi mexanizmlər təşkil edir. Dövlət tənzimlənməsi eyni zamanda səmərəli struktur siyasəti ilə də reallaşdırılır və bu əsas etibarilə dövlət sifarişi vasitəsilə qeyri-neft sektoru müəssisələrinin yerləşdirilməsini nəzərdə tutur. Maliyyə-iqtisadi siyasət səmərəli maliyyə-kredit sisteminin reallaşdırılmasına istiqamətlənir və infilyasiya tədbirləri vasitəsilə makroiqtisadi situasiyanın sabitləşdirilməsinə əlverişli şərait yaradır [4, 69].

Dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən biri kimi investisiya siyasətinin reallaşdırılması dövlət investisiya siyasəti vasitəsilə qeyri-neft sektorunda səmərəli sistemin formalaşdırılmasına əsaslanır. İstər yerli, istərsə də cəlb edilmiş investisiyaların stimullaşdırılması müasir şəraitdə qeyri-neft sektorunun inkişafında mühüm mənbə hesab olunur. Bu baxımdan investisiyalara təminat verilməsi zəruri şərtlərdən biridir. Təbii ki, dövlət tərəfindən xarici investisiyalara təminat verilməsi, xarici investisiyaların bu sahəyə cəlb edilməsinin başlıca ilkin şərtlərindən biri hesab edilir. İnnovasiya siyasəti isə elmin və texnikanın inkişafının ən yeni nailiyyətlərinin istehsalatda davamlı olaraq tətbiqini nəzərdə tutur. Qeyri-neft sektorunun dövlət tənzimlənməsi, bir qayda olaraq yeni satış bazarlarına daxilolma imkanlarının təmin edilməsinə, eləcə də dövlət büdcəsindən zəruri dəstəyin göstərilməsinə, elmi texniki perspektivlərin formalaşdırılmasına əsaslanır ki, bütün bunlar ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində qeyri-neft sektorunun rolunu güclənməsinə gətirib çıxarır [5, 185].

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından qeyri-neft sektorunun inkişafının təşkilati-iqtisadi mexanizmləri yaradılmalıdır. Bu proses istehsalı stimullaşdırmaqla yanaşı eyni zamanda həmin məhsulların dünya bazarında rəqabətdavamlılığının yüksəldilməsinə zəruri fundamental dayaqlar yaradır. Hazırki şəraitdə qeyri-neft sektorunun inkişafı neft-yanacaq sektorundan fərqli olaraq kifayət qədər yeni yaradılan ixrac sektorlarını özündə əks etdirir. Bu baxımdan həmin ixrac sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsi, həmin sektorun dünya bazarında kifayət qədər effektiv şəkildə rəqabət aparmaları üçün zəruri təşkilati-iqtisadi mexanizmlərin yaradılması olduqca mühüm əhə-

miyyətə malikdir.

Dövlət müstəqilliyinin 24-cü ilini yaşayan Azərbaycan Respublikasının milli iqtisadiyyatının strukturunda özəl bölmənin xüsusi çəkisi təxminən 80% -dən coxdur. Sahibkarlıq qurumları, bazar təsərrüfatçılıq sisteminin əsas elementləri və mexanizmlər iqtisadiyyatda önəmli rol oynamaqdadır. Artıq iqtisadiyyatın əksər sahələrində maliyyə-kredit infrastrukturları formalaşmışdır. Məhz belə bir şəraitdə qeyri-neft sektorunun inkişafı, təbiidir ki, bazar təsərrüfatçılıq sisteminin hakim mexanizmləri əsasında bərqərar olmalıdır. Lakin onu da nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələrdən fərqli olaraq transformasiya prosesini yaşayan ölkələrdə fəaliyyət göstərən sahibkarlıq qurumları ayrı – ayrı sahələrdə heç də eyni dərəcədə fəal təsərrüfat, maliyyə imkanlarına malik deyillər. Məsələn, iqtisadiyyatda strateji əhəmiyyəti ilə seçilən, lakin azgəlirli sahələrdən biri kimi və eyni zamanda çoxşaxəli ixrac sektorunun formalaşmasında əhəmiyyətli yer tuta biləcək kənd təsərrüfatı sektorunda yeni yaradılmış sahibkarlıq qurumlarının maliyyə imkanları yetərli deyildir. Məhz bu hal ixrac sektoru kimi kənd təsərrüfatını rəqabətqabiliyyətli bir sahə kimi xarici bazarlarda təmsil etməsində problemlər yaradır.

Əvvəlki təsərrüfatçılıq sistemindən fərqli olaraq bazar təsərrüfatçılıq sistemində təşkilati mexanizmlər direktiv xarakter daşımır və daha çox koordinasiyalı bir sistemi özündə əks etdirir. Bu zaman könüllü birliklərin yaradılması, eyni zamanda dövlət tərəfindən infrastruktur sisteminin formalaşdırılmasına təşkilati, texniki baxımdan yardımların göstərilməsi qeyri-neft sektorunun inkişafında mühüm təşkilati mexanizmlər kimi xarakterizə edilməlidir. Ümumiyyətlə qeyri-neft sektorunun inkişafının təşkilati mexanizmlərini təhlil edərkən inkişaf etmiş ölkələrin, bu və ya digər sahədə ixtisaslaşmış beynəlxalq əmək bölgüsündə mühüm rol oynayan ölkələrin təcrübəsini də nəzərə almaq vacibdir. Məsələn, Yeni Zellandiya və Avstraliyanın təcrübəsi göstərir ki, həmin ölkələrdə istehsal edilən ət, süd məhsullarının, heyvandarlıq məhsullarının xaricə çıxışı əsas etibarı ilə ixtisaslaşmış assosiasiyalar və kooperativ birliklər tərəfindən həyata keçirilir. Əmtəə istehsalçıları tərəfindən istehsal edilən heyvandarlıq məhsulları əsasən müəyyən assosiasiyalar tərəfindən bazara çıxarılır. Bu təşkilati struktur isə yerli əmtəə istehsalçısını həmin məhsulların xarici bazara çıxarılması ilə bağlı üzləşdiyi nəqliyyat, daşınma və digər bu kimi problemlərdən azad edir. Belə bir şəraitdə istehsalçı sadəcə olaraq xarici bazara çıxışla bağlı bu və ya digər şəkildə məhsulun iqtisadi cəhətdən dəyərini əldə edir və son nəticədə məhsulun satılması ilə bağlı problemlərdən sadəcə olaraq azad olur.

Qeyri-neft sektorunun inkişafının təşkilati mexanizmlərinin əsas elementlərindən biri kimi infrastruktur sistemi mühüm rola malikdir. Infrastruktur sistemi məhsulların saxlanılması və daşınması ilə bağlı problemlərin həllində əhəmiyyətli rol oynayan məqamlardan biri kimi çıxış edir. Digər mexanizmlərdən biri çevik və səmərəli fəaliyyət göstərmək imkanına malik olan marketinq xidmətinin yaranmasıdır. Məhz bu sahədə istehsal edilən məhsulların xarici bazara çıxarılmasında çevik marketinq xidmətinin yaradılması vacibdir. Qeyri-neft

sektorunun inkişafının təşkilati mexanizmləri içərisində informasiya – məsləhət xidmətləri də mühüm rol oynayır. İnformasiya – məsləhət xidmətlərinin göstərilməsi bazar konyukturunda baş verən dəyişikliklərə qeyri-neft sektoru sahələrinin effektiv reaksiya göstərmək imkanlarını genişləndirir.

Qeyri-neft sektorunun inkişafı sahəsində qarşıda duran mühüm vəzifələrdən biri də ixracın tərkibində ayrı-ayrı sahələrin tarazlı payının formalaşdırılmasına nail olmaqdan ibarətdir. Məcmu ixracın strukturunda bir sahənin üstün payı konyuktur asılılığının özündə biruzə verməsinə səbəb olur. Bu da nəinki böhranlı şəraitdə makroiqtisadi göstəricililərin səviyyəsinin aşağı düşməsinə, eləcə də əhalinin yaşayış səviyyəsində də destruktiv tendensiyaların yaranmasına gətirib çıxardır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, qeyri-neft sektorunun inkişafının təşkilati mexanizmləri içərisində inteqrasiya olunmuş kooperativ strukturlarının yaradılması mühüm əhəmiyyət kəsb edir. Inteqrasiya olunmuş kooperativ strukturlar əsas etibarı ilə könüllü şəkildə istehsalçı birlikləri formasında və ya dövlətin təşkilati-iqtisadi dəstəyilə yaradılır. Dövlət tərəfindən yaradılmış inteqrasiya olunmuş birliklərin əmlakının özəlləşdirilməsi zamanı həmin struktur özəl quruma da çevrilə bilir. İnteqrasiya olunmuş qruplar əsas etibarı ilə bu və ya digər məhsulların xarici bazara çıxışını təmin etmək məqsədilə zəruri marketinq xidmətləri və digər infrastruktur xidmətlərini də həyata keçirir [6, 217].

Qeyri-neft sektorunun inkişaf etdirilməsi istehsal olunan məhsulların bazar problemlərinin həll edilməsindən bilavasitə asılıdır. Istehsal edilən məhsulların xarici bazara çıxarılmasında daha çox alternativ variantlardan istifadə edilməsi hallarına üstünlük verilməlidir. Bu baxımdan xarici investisiyalı müəssisələrin yaradılması qarışıq müəssisələrin və birliklərin yaradılması məhsulların xarici bazarlara çıxarılmasında ən mühüm istiqamətlərdən biridir. Bu təcrübə respublikamız üçün mühüm əhəmiyyətə malikdir. Hazırda respublikamızda iqtisadiyyata qoyulan xarici investisiyalı müəssisələr üstünlük təşkil etsə də, bu tendensiyanı kənd təsərrüfatında müşahidə etmək o qədər də mümkün deyil. Kənd təsərrüfatının investisiya cəlbediciliyinin aşağı olması baxımından xarici investorlar bu sahəyə investisiya qoymağa maraqlı olmurlar.

Qeyri-neft sektorunda istehsal edilən məhsulların reallaşdırılması zamanı bazarların fərqli olmasını nəzərə almaq lazımdır. Milli iqtisadiyyatda ənənəvi məhsulların ixracı zamanı bu amillər nəzərə alınır. Təbii resursların xarici bazarlara ixracı zamanı bu fərqlilik o qədər də əhəmiyyətli rol oynamır. Lakin qeyri-neft sektorunun inkişafı fonunda çoxşaxəli ixracın formalaşdırılması zamanı milli bazarların fərqli olmasını nəzərə almaq lazımdır. Bu və ya digər milli bazara mal satmaq istəyən xarici firmalar bu bazarların xüsusiyyətlərini nəzərə almalıdır. Beynəlxalq iqtisadi əlaqələrin daxili iqtisadi proseslərə nisbətən fərqli iqtisadi şərtlər müstəvisində cərəyan etməsi müxtəlif təhlil vasitələrindən istifadə olunmasını da şərtləndirir. Müxtəlif xarici bazarların beynəlxalq marketinq sistemi vasitəsilə tədqiq olunmasının ön plana çəkilməsi və bey-

nəlxalq marketinq şəbəkəsi formalaşdırılmalıdır. Bu mexanizm istər qeyri-neft sektorunun inkişafında istərsə də çoxşaxəli ixrac fəaliyyətinin həyata keçirilməsində mühüm təşkilati mexanizm səciyyələnir.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından təsərrüfatçılığın iqtisadi mexanizmi də mühüm amillərdən biridir. Bu məqsədlə iqtisadi mexanizm yeni yaradılan sahələrin davamlı inkişafına və onların xarici bazarlarda əlverişli mövqe tutmasına əhəmiyyətli zəmin yaradır. Milli iqtisadiyyatda ixracın ənənəvi sahələri üçün zəruri dəstəkləyici iqtisadi mexanizminin formalaşdırılması o qədər də mühüm əhəmiyyət kəsb etmir. Lakin qeyri-neft sektorunun inkişafı ixrac yönümlü sahələrin formalaşdırılmasını özündə əks etdirdiyindən zəruri iqtisadi mexanizmin formalaşdırılmasına kəskin ehtiyac vardır. Yeni sahələrin məhsullarının xarici bazarlara çıxarılması zamanı təsərrüfatçılığın iqtisadi mexanizmi nəinki bu sahədə fəaliyyət göstərən istehsalçıların daxili və xarici bazarda möhkəmlənməsinə, həm də həmin sahələrin davamlı inkişafına istiqamətlənməlidir. Hal-hazırda respublikamızda qeyri-neft sektorunun inkişafının mühüm elementlərindən biri kimi kənd təsərrüfatı və turizm sahəsində iqtisadi mexanizmin stimullaşdırıcı funksiyalarından istifadə edilməsinə xüsusi diqqət yetirilməlidir. Bazar münasibətləri şəraitində iqtisadi mexanizm daha çox dolayı təsir imkanlarına malikdir. Qloballaşma şəraitində iqtisadiyyatın liberallaşdırılması daxili bazarda əmtəə və xidmətlərin, kapitalın və texnologiyanın sərbəst hərəkətini şərtləndirir. Təbii ki, bu zaman zəruri iqtisadi mexanizmlər olmadan yeni sahələrin iqtisadi maraqlarını müdafiə etmək mümkün deyil. Bu baxımdan iqtisadi mexanizmlər sahənin dinamik inkişafının təmin edilməsinə, rəqabətdavamlılığının yüksəldilməsinə əlverişli şərait yaradır.

Qeyri-neft sektorunun inkişafına zəmin yaradan iqtisadi mexanizmlər içərisində qiymət mexanizmi xüsusilə mühüm rol oynayır. Elmi nöqteyi-nəzərdən qiymət əmtəə dəyərinin pul ifadəsi olub istehsalçının təklif etdiyi və istehlakçının almaq istədiyi dəyər arasındakı optimal nisbəti özündə əks etdirir. Qiymətin səviyyəsi bazar münasibətləri şəraitində bir sıra obyektiv səbəblər altında formalaşır ki, bu səbəblərə, ilk növbədə, əmtəələrin növləri, onların rəqabət davamlılığı, bazarın tələb və təklifinin nisbəti, dövlət tənzimlənməsinin səviyyəsi və bazarda inhisarçılığın səviyyəsini aid etmək olar. Müxtəlif iqtisadi şərtlər daxilində qiymətin səviyyəsinə digər subyektiv amillır də təsir göstərir ki, bunlara konkret bazarların seçilməsini, məhsulların çatdırılması ilə bağlı daşınma şərtlərini, eləcə də kommersiya təcrübəsini və digər bu kimi amilləri aid etmək olar. Əmtəə istehsalçıları tərəfindən bazara çıxarılan məhsulun məcmusunu özündə əks etdirməklə təklifin səviyyəsi, eləcə də dövlətin iqtisadi siyasəti, mövcud təchizat sistemləri və bazarın durumu da qiymətin səviyyəsinə əhəmiyyətli təsir imkanına malikdir. Qeyri-neft sektorunda, xüsusilə də kənd təsərrüfatında qiymətlərin səviyyəsi bazar münasibətləri şəraitində istehsalçıların stimullaşdırılmasına xidmət etmir. Bu baxımdan qeyri-neft sektorunun inkişafının zəruri ilkin şərti kimi iqtisadi mexanizmin mühüm əhəmiyyəti vardır. Qiymətlərin tənzimlənməsi istehsalın səmərəliliyinin yüksəldilməsinə xidmət etməlidir.

Qeyri-neft sektorun inkişafının iqtisadi mexanizmində vergi münasibətləri əhəmiyyətli rol oynayır. Məlum olduğu kimi, vergilər dövlət büdcəsinin formalaşdırılmasında əhəmiyyətli vasitələrdən biri hesab olunur. Vergilərin ən əhəmiyyətli vasitələrindən biri stimullaşdırıcı funksiyasıdır ki, bu da qeyri-neft sektorunun inkişafında əhəmiyyətli rol oynayır. Bundan əlavə məhsulların xarici bazara çıxarılmasında və ixracın sürətləndirilməsində sığorta sisteminin təkmilləşdirilməsi mühüm rol oynayır. Sığorta sistemi qeyri-neft sektorunun iqtisadi mexanizmində mühüm vasitələrindən biri kimi çıxış edir. Qeyri-neft sektorunun inkişafının mühüm tərkib hissəsi kimi kənd təsərrüfatının risklərindən effektiv şəkildə sığortalanması zamanı əsas diqqəti təbii iqlim şəraitinin əlverişsiz keçməsi səbəbindən yaranan risklərin zərərli xüsusiyyətlərindən kompensasiya edilməsinə yönəldilməlidir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə imkanları həmin riskləri effektiv şəkildə sığortalamağa qadir deyil. Bu baxımdan dövlət tərəfindən sığorta sisteminin formalaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi vacibdir [7, 49]. Qeyri-neft sektorunun inkişafında dövlət yardımları da iqtisadi mexanizmin mühüm tərkib hissəsi kimi çıxış edir. Qeyri-neft sektorunun inkişafı və kənd təsərrüfatının ixrac sektoru kimi rəqabət qabiliyyətli fəaliyyətinin həyata keçirilməsində təşkilati-iqtisadi mexanizmin formalaşdırılması və onun yeni istehsal münasibətlərinə uyğun olaraq təkmilləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Hazırda respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından kənd təsərrüfatı və emal sənayesinin inkişaf etdirilməsi də mühüm əhəmiyyətə malikdir.

Qeyri-neft sektorunun inkişafında təkcə məhsul istehsalı deyil, ümumiyyətlə xidmətlərin göstərilməsi də mühüm rol oynayır. Xidmətlərin göstərilməsi sahəsində inkişaf səviyyəsinin dünya standartlarından geri qalması ölkəyə gələn turistlərin sayına da bu və ya digər şəkildə əngəl ola bilər. Odur ki, xüsusilə turizm sahəsi üzrə ixtisaslaşmış regionlarda sosial-iqtisadi inkişafın səviyyəsinin sürətləndirilməsinə istiqamətlənmiş tədbirlər həyata keçirilməlidir. Turizm sahəsi üzrə ixtisaslaşmış regionlar bu sahədən o zaman gəlir əldə edə bilər ki, öz obyektlərində maddi-istehsal və infrastruktur sahələri formalaşdıra bilsinlər. Belə ki, əgər həmin regionlarda turistlərin qidalanması üçün zəruri olan bitkiçilik və heyvandarlıq məhsulları kənardan gətirilirsə, təbii ki, bu regionun sosial-iqtisadi inkişafına o qədər də yetərli şəkildə təsir göstərə bilməz. Beləliklə, turizm sahəsi üzrə üstünlüyə malik olan regionlarda bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı, emal sənayesinin inkişaf etdirilməsi, infrastruktur sahəsinin genişləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilməlidir ki, bu da gəlirlərin həmin regionlarda təmərküzləşməsinə əlverişli şərait yarada bilər.

**ƏDƏBİYYAT**

1. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti. Monoqrafiya. Bakı: İqtisad Universiteti. 2011, 530 s.
2. Orucov A., Kərimov C. Beynəlxalq iqtisadi münasibətlər. Bakı: Nurlan, 2008, 420 s.

3. Abbasov A.F., Məmmədov İ.N. Qeyri-neft sektorunun inkişaf istiqamətləri Bakı: Apostrof, 2012, 524 s.
4. Vəliyev D.Ə. Qeyri-neft sektorunun inkişafı-qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının tərəqqi yoludur // İpək yolu, 2014, № 1.
5. Kərimov C., Orucov A. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi (Beynəlxalq iqtisadi təşkilatlar) Bakı 2012, 230 s.
6. Əliyev A., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid dövlətin iqtisadi siyasəti. Bakı, 2002, 340 s.
7. Məhərrəmov A., Aslanov N. Xarici-iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı: BDU, 2008, 399 s.

## ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ РАЗВИТИЯ НЕНЕФТЯНОГО СЕКТОРА И ЕГО ОРГАНИЗАЦИОННО-ЭКОНОМИЧЕСКИЕ МЕХАНИЗМЫ

**Г.Г.АСЛАНОВ, В.И.АЛИЕВ**

### РЕЗЮМЕ

Государственное регулирование развития ненефтяного сектора оказывает значительное влияние на формирование альтернативной сферы экспорта национальной экономики. Наряду с этим оно имеет важное значение в снижении зависимости страны от нефти. Государственное регулирование ненефтяного сектора способствует укреплению экономической устойчивости этой сферы. Государственное регулирование этого сектора экономики в конечном итоге создает условия для обеспечения экономической безопасности страны и развития регионов.

**Ключевые слова:** государственное регулирование, нефтяной сектор, экспортный потенциал, внешняя торговля, экономическая безопасность, региональное развитие

## THE STATE REGULATION OF THE DEVELOPMENT OF NON-OIL SECTOR AND ITS ORGANIZATIONAL-ECONOMIC MECHANISMS.

**H.H.ASLANOV, V.I.ALIYEV**

### SUMMARY

The state regulation of the development of non-oil sector influences to the formation of the alternative export sphere of national economy. Moreover, state regulation of the development of non-oil sector decreases dependence of the state from oil. This process provides strengthening economic stability in this field. State regulation of non-oil sector also provided economic safety of the country and development of regions. The article provides a thororugh analysis of these problems.

**Key words:** state regulation, oil sector, export potential, foreign trade, economic safety, regional development.